AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olursunuz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

- **1 yanvar 2019-cu il tarixdən** etibarən kənd təsərrüfatı məhsullarının istehsalı ilə (o cümlədən sənaye üsulu ilə) məşğul olan vergi ödəyicilərinə **mənfəət, sadələşdirilmiş, ƏDV və əmlak vergisi üzrə** verilən güzəştin müddəti əlavə olaraq **5 il müddətinə uzadılmışdır**.

## Əlavə olaraq onu da bilməlisiniz ki...

- Vergi Məcəlləsi ilə nəzərdə tutulmuş vergi güzəşti və azadolmalarını əldə edən şəxslər tərəfindən vergidən azad olunan gəlirlərin bəyan edilməməsinə və ya azaldılmasına görə **2019-cu il yanvar ayının 1-dən** etibarən vergi ödəyicisinə bəyan edilməmiş və ya azaldılmış gəlirin (xərclər çıxılmadan) 6 faizi miqdarında maliyyə sanksiyası tətbiq ediləcəkdir. Xatırladırıq ki, həmin maliyyə sanksiyası 2019-cu il yanvarın 1-dən bir il müddətində belə hala birinci dəfə yol verildikdə vergi orqanı tərəfindən rəsmi (yazılı) xəbərdarlıq edildikdən sonra həyata keçirilən vergi nəzarəti tədbirləri zamanı tətbiq olunur.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

**www.taxes.gov.az**

- Bu maliyyə sanksiyası kənd təsərrüfatı məhsullarının istehsalçılarına münasibətdə **1 yanvar 2020-ci il tarixdən etibarən** tətbiq ediləcəkdir.

❖ Mülkiyyətində olan kənd təsərrüfatına yararlı torpaqları istifadə edən fiziki şəxslərə və ailə kəndli təsərrüfatlarının əmək qabiliyyətli ailə üzvlərinə sosial sığorta haqlarının uçotu barədə hesabatı və ya hesabat dövründə fəaliyyət göstərmədiyi halda fəaliyyətin olmaması barədə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməməyə görə - təqvim ili ərzində belə hallara birinci dəfə yol verdikdə müəyyən olunmuş minimum aylıq əməkhaqqının **3 faizi**, iki və daha çox dəfə yol verdikdə **6 faizi** miqdarında **2020-ci il yanvar ayının 1-dən etibarən** maliyyə sanksiyası tətbiq ediləcəkdir.

## Əlavə olaraq...

❖ Fərdi sahibkar olduğunuz təqdirdə, 1 yanvar 2019-cu il tarixdən 1 il müddətinədək hər ay üzrə minimum aylıq əməkhaqqının **20 faizi** məbləğinin:

- Bakı şəhərində 100 faizi;
- Sumqayıt və Gəncə şəhərlərində 90 faizi;
- respublika tabeli digər şəhərində 80 faizi;
- rayon mərkəzlərində, digər şəhər və qəsəbələrdə 60 faizi;
- kənd yerlərində 50 faizi miqdarında **məcburi dövlət sosial sığorta haqqı** hesablamalı və bu barədə rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına hesabat təqdim etməli;

❖ **Məcburi dövlət sosial sığorta haqqını** hər ay üzrə növbəti ayın **15-dən** gec olmayaraq tam məbləğdə yalnız nağdsız hesablaşma qaydasında ödəməlisiniz.

(!) Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.